


AZƏRBAYCAN RESPUBLİKASI İQTİSADİ İSLAHATLARIN
TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ

# İXRAC İCMALI

Yanvar 2019

iqtisadiislahat.org
info@ereforms.org

AZEXPORT.AZ
Made in Azerbaijan

# “BİZİM İQTİSADİ SİYASƏTİMİZ DÜŞÜNÜLMÜŞ SİYASƏTDİR”

Azərbaycan Respublikasının Prezidenti
cənab İLHAM ƏLİYEVİN
Nazirlər Kabinetinin 2018-ci ilin
sosial-iqtisadi inkişafının yekunlarına və
qarşıda duran vəzifələrə həsr olunan
iclasındakı nitqindən



“İxracla bağlı yaxşı göstəricilər var. İxrac 36 faiz artıb. Ümumi rəqəmi götürsək, ixracımız 19 milyard dollara çatıb. Xarici ticarət balansında müsbət saldo – yəni, ixracın idxalı üstələməsi 8,6 milyard dollar təşkil edir. Əgər ölkələrə biz nəzər salsaq görərik ki, bu da dünya miqyasında nadir hallarda müşahidə olunan mənzərədir. Ölkələrin əksəriyyətində idxal ixracı üstələyir. Azərbaycanda isə biz bunun əksini görürük. Özü də biz ölkəyə ixracla bağlı daha çox - 8,6 milyard dollar pul gətirmişik, nəinki xərcləmişik. Əgər biz buraya xarici turistlərdən gələn vəsaiti əlavə etsək, onda görərik ki, rəqəm daha da artacaq. Onu da bildirməliyəm ki, keçən il ölkəmizə 2 milyon 850 min xarici vətəndaş gəlib. Bu, 6 faiz artım deməkdir. Aparılan hesablamalara görə, bu xarici qonaqlar ölkəmizdə 2 milyard dollar pul xərcləyiblər. Turizmin inkişafı ilə bağlı apardığımız siyasət, görürsünüz ki, ilk növbədə, maliyyə sahəsində özünü büruzə verir. Həm ölkəmizi tanıtdırırıq, həm də pul qazanırıq.

Beləliklə, iqtisadi göstəricilərimiz elədir ki, dünyanın istənilən ölkəsi bu göstəriciləri böyük qəhrəmanlıq kimi qəbul edə bilər, bizim üçün isə bu, adi haldır. Çünki bizim iqtisadi siyasətimiz düşünülmüş siyasətdir. Ümumiyyətlə, bizim siyasətimiz Azərbaycan xalqının maraqlarını tam əks etdirir, ona tam uyğundur. Məhz buna görə Azərbaycan xalqı bizim siyasətimizi dəstəkləyir”.

# MÜNDƏRİCAT

Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ____ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ____ səh. 11

Azexport.az portalına 2018-ci ildə 514 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur ____ səh. 17

Sərbəst satış sertifikatı sahibkarlara yeni ixrac imkanları qazandırmışdır ____ səh. 21

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən 8 milyon ABŞ dolları dəyərində ixrac reallaşmışdır ____ səh. 23

Azərbaycandan Almaniyaya 200 ton orqanik fındıq ləpəsi ixrac olunur ____ səh. 26

Azərbaycan məhsulları "Beynəlxalq Yaşıl Həftə"də nümayiş olunmuşdur ____ səh. 27

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

2018-ci ilin **YANVAR-DEKABR AYLARINDA** qeyri-neft sektoru üzrə **1** milyard **689** milyon ABŞ dolları dəyərində mal **İXRAC OLUNMUŞDUR**

**ÖTƏN İLİN** müvafiq dövrü ilə müqayisədə qeyri-neft sektoru üzrə ixrac **151** milyon ABŞ dolları və ya **10%** **ARTMIŞDIR**

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin məlumatına əsasən 2018-ci ilin yanvar-dekabr ayları ərzində Azərbaycan Respublikasının ixracı 19,5 milyard ABŞ dolları təşkil etmişdir. Bu müddətdə Azərbaycan Respublikasında qeyri-neft sektoru üzrə ixrac isə **1 689 milyon** ABŞ dolları təşkil etmişdir. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar-dekabr ayları ərzində qeyri-neft sektoru üzrə ixrac **151 milyon** ABŞ dolları və ya **10 faiz** artmışdır. 2018-ci il ərzində Rusiyaya **619,2 milyon**, Türkiyəyə **344,9 milyon**, İsveçrəyə **135,4 milyon**, Gürcüstana **124,5milyon** və Qazaxıstana **44,6 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunmuşdur.

2017-ci illə müqayisədə 2018-ci il ərzində Rusiyaya qeyri-neft ixracı **12 faiz**, Türkiyəyə **18 faiz**, Qazaxıstana **36 faiz** artmış, İsveçrəyə **6 faiz**, Gürcüstana isə **10 faiz** azalmışdır.

2018-ci ilin yanvar-dekabr ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında **pomidor** (177,4 milyon ABŞ dolları) birinci, **qızıl** (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda – 118 milyon ABŞ dolları) ikinci, **xurma** isə (114,5 milyon ABŞ dolları) üçüncü olmuşdur.

Ötən ilin yanvar-dekabr aylarında qabığı təmizlənmiş meşə fındığı, pambıq lifi (daranmaya məruz qalmamış), xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, elektrik enerjisi, emal olunmamış aşqarlanmamış alüminium, daş kömür qatranının yüksək temperaturlu qovulmanın digər yağları və məhsulları da qeyri-neft ixracında mühüm paya sahib olmuşdurlar.

Ümumiyyətlə, 2018-ci ilin yanvar-dekabr ayları ərzində meyvə-tərəvəz ixracı **559,6 milyon**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı **118,6 milyon**, alüminium və ondan hazırlanan məmulatların ixracı **112,2 milyon**, elektrik enerjisinin ixracı **65,6 milyon**, qara metallar və onlardan hazırlanan məmulatların ixracı **86,2 milyon**, pambıq lifi ixracı **80,5 milyon**, kimya sənayesi məhsullarının ixracı **78,1 milyon**, pambıq ipliyi ixracı **23,7 milyon** ABŞ dolları təşkil etmişdir. 2017-ci illə müqayisədə 2018-ci ildə pambıq lifinin ixracı **2,4 dəfə**, elektrik enerjisinin ixracı **29 faiz**, pambıq ipliyinin ixracı **49 faiz**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı **17 faiz**, meyvə-tərəvəzin ixracı **11 faiz**, qara metallar və onlardan hazırlanan məmulatların ixracı **4 faiz** artmışdır.

2018-ci ilin dekabr ayında isə qeyri-neft sektoru üzrə ixrac **157 milyon** ABŞ dolları təşkil etmişdir. Ötən ilin dekabr ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya (63,8 milyon ABŞ dolları) birinci olmuşdur.

Daha sonra bu siyahıda Türkiyənin (23,6 milyon ABŞ dolları), İsveçrənin (12,2 milyon ABŞ dolları), Gürcüstanın (7,4 milyon ABŞ dolları), İranın (5,4 milyon ABŞ dolları) və digər ölkələrin adları vardır.

Ötən ilin dekabr ayında qeyri-neft sektoru üzrə ixracda xurma (25,4 milyon ABŞ dolları) birinci, pomidor (15,2 milyon ABŞ dolları) ikinci olmuşdur. Bu siyahıda üçüncü yerdə qabığı təmizlənmiş meşə fındığı (13,4 milyon ABŞ dolları) qərarlaşmışdır.

Həmçinin 2018-ci ilin dekabr ayında qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda), pambıq lifi (daranmaya məruz qalmamış), alma, xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, mis filizləri və konsentratları, daş kömür qatranının yüksək temperaturlu qovulmanın digər yağları və məhsulları qeyri-neft sektoru üzrə ixracda önə çıxmışdır.

2018-ci ilin yanvar-dekabr ayları ərzində ixrac olunan əsas malların siyahısı və əsas ixrac ölkələri barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikalarda verilmişdir.

MADE IN AZERBAIJAN

# 2018-Cİ İLİN **YANVAR-DEKABR AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**
## (2017-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2019 İXRAC İCMALI YANVAR



# 2018-Cİ İLİN **DEKABR AYINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**
**(2017-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**







| Ölkə | 2018-ci il | 2017-ci il |
|---|---|---|
| RUSİYA | 63,8 | 54,8 |
| TÜRKİYƏ | 23,6 | 27,8 |
| İSVEÇRƏ | 12,2 | 10 |
| GÜRCÜSTAN | 7,4 | 17,4 |
| İRAN | 5,4 | 1,7 |



## 2018-Cİ İLİN **YANVAR-DEKABR AYLARINDA** 2017-Cİ İLİN MÜVAFİQ DÖVRÜNƏ NİSBƏTƏN QEYRİ-NEFT SEKTORUNA AİD BƏZİ MALLARIN **İXRACININ ARTIMI**

**(Dəyəri milyon ABŞ dolları ilə)**



# 2018-Cİ İLİN **YANVAR-DEKABR AYLARINDA** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2017-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2019 İXRAC İCMALI YANVAR



2019 İXRAC İCMALI YANVAR

# 2018-Cİ İLİN **DEKABR AYINDA** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2017-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| | 2018 | 2017 |
|---|---|---|
| Xurma | 25,4 | 20,9 |
| Tomat | 15,2 | 11, 4 |
| Fındıq ləpəsi | 13, 4 | 9,9 |
| Qızıl | 10,9 | 9 |
| Mahlıc | 9,5 | 5,1 |
| Alma | 6,7 | 5 |
| İlkin formalı polietilen | 5,7 | 8,9 |
| Mis filizləri və konsentratları | 3, 4 | 0,8 |
| Digər yağlar və məhsullar | 3, 4 | 4, 4 |
| Digər | 63,9 | 76,3 |

# 2018-Cİ İLİN **YANVAR - DEKABR AYLARI** ÜZRƏ ƏN ÇOX İXRAC EDİLƏN QEYRİ-NEFT SEKTORUNA AİD MALLAR **(milyon ABŞ dolları ilə)**

İXRAC İCMALI 2019 YANVAR

| Ay | Dəyər | Mal |
|---|---|---|
| YANVAR | 17,2 | Qızıl |
| FEVRAL | 17,7 | Elektrik enerjisi |
| MART | 13,6 | Elektrik enerjisi |
| APREL | 18,5 | Pomidor |
| MAY | 54,3 | Pomidor |
| İYUN | 43,2 | Pomidor |
| İYUL | 16,4 | Pambıq lifi |
| AVQUST | 12,6 | Qızıl |
| SENTYABR | 12 | Fındıq ləpəsi |
| OKTYABR | 23,3 | Xurma |
| NOYABR | 45,2 | Xurma |
| DEKABR | 25,4 | Xurma |

# 2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

## 2018-ci ilin **YANVAR-DEKABR AYLARINDA** qeyri-neft sektoru üzrə **ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ**

"İxrac İcmalı" tərəfindən qeyri-neft sektoru üzrə 2018-ci ilin yanvar-dekabr aylarında həyata keçirilən ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi tərtib edilmişdir.

2018-ci il üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı subyektlər təmsil olunurlar: "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "MKT İstehsalat Kommersiya" MMC, "Baku Steel Company" MMC, "Kapitan Fruits" MMC, "Food Export Şəmkir" MMC, "Azfruittrade" MMC, "Sun Food" MMC, "TST Export" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "Qala meyvə-tərəvəz ixracat idxalat" MMC.

Qeyd edək ki, 2017-ci üzrə tərtib edilən reytinqlə müqayisədə aydın olur ki, 2018-ci ildə "Kapitan Fruits" MMC, "Azfruittrade" MMC, "TST Export" MMC və "Qala meyvə-tərəvəz ixracat idxalat" MMC qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda təmsil olunmaq şansı qazanmışlardır.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə ARDNŞ-nin "Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi" başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Det-al Alüminium" MMC, "Azərenerji" ATSC, "Azergold" QSC, "SOCAR Methanol" MMC, "Azərbaycan Hava Yolları" QSC, "CTS-Agro" MMC, "Ərzaq Məhsullarının Tədarükü və Təchizatı" ASC, "Geofizika və Geologiya İdarəsi", Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.



# 2018-Cİ İLİN **YANVAR-DEKABR AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ (2017-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI YANVAR

| | 2018-ci il | 2017-ci il |
|---|---|---|
| "AZƏRBAYCAN İNTERNEYŞNL MAYNİNQ KOMPANİ LİMİTED ŞİRKƏTİ"NİN AZƏRBAYCAN RESPUBLİKASINDAKI NÜMAYƏNDƏLİYİ | 106,1 milyon | 834 milyon |
| "MKT İSTEHSALAT KOMMERSİYA" MMC | 61,5 milyon | 27,8 milyon |
| "BAKU STEEL COMPANY" MMC | 57,2 milyon | 59,7 milyon |
| "KAPİTAN FRUITS" MMC | 51,8 milyon | 0 |
| "FOOD EXPORT ŞƏMKİR" MMC | 34 milyon | 20,2 milyon |
| "AZFRUITTRADE" MMC | 33,3 milyon | 0 |
| "SUN FOOD" MMC | 28,1 milyon | 28,5 milyon |
| "TST EXPORT" MMC | 28 milyon | 0 |
| "AZƏRBAYCAN ŞƏKƏR İSTEHSALAT BİRLİYİ" MMC | 25 milyon | 40,2 milyon |
| "QALA MEYVƏ-TƏRƏVƏZ İXRACAT İDXALAT" MMC | 23,7 milyon | 0 |

# 2018-ci ilin **yanvar-dekabr aylarında** qeyri-neft sektoru üzrə **dövlətə məxsus ixracatçı subyektlərin reytinqi (2017-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI

| | 2018-ci il | 2017-ci il |
|---|---|---|
| "MARKETİNQ VƏ İQTİSADİ ƏMƏLİYYATLAR İDARƏSİ" | 181,5 milyon | 154,9 milyon |
| "DET-AL ALÜMİNİUM" MMC | 84,7 milyon | 103,5 milyon |
| "AZƏRENERJİ" ASC | 64,7 milyon | 49,8 milyon |
| "AZERGOLD" QSC | 32,1 milyon | 77,3 milyon |
| "SOCAR METHANOL" MMC | 26,8 milyon | 42,8 milyon |
| "AZƏRBAYCAN HAVA YOLLARI" QSC | 26 milyon | 1, 6 milyon |
| "CTS-Agro" MMC | 19,7 milyon | 15,3 milyon |
| "ƏRZAQ MƏHSULLARININ TƏDARÜKÜ VƏ TƏCHİZATI" ASC | 2,5 milyon | 32,3 milyon |
| "GEOFİZİKA VƏ GEOLOGİYA İDARƏSİ" | 1,9 milyon | 3,7 milyon |
| NAXÇIVAN MUXTAR RESPUBLİKASININ DÖVLƏT ENERGETİKA XİDMƏTİ | 920 min | 1,2 milyon |



# 2018-Cİ İLİN YANVAR-DEKABR AYLARINDA “AZƏRKOSMOS” ASC 25,6 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR

2019 İXRAC İCMALI YANVAR

2018-ci ilin yanvar-dekabr aylarında “Azərkosmos” ASC tərəfindən dünyanın **24 ölkəsinə** xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir. “Azərkosmos” ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **87 faizini** təşkil etmişdir.

2018-ci ilin dekabr ayında isə “Azərkosmos” ASC dünyanın **16 ölkəsinə** **1,6 milyon** ABŞ dolları dəyərində xidmət ixrac etmişdir.

2018-ci ilin yanvar-dekabr aylarında “Azərkosmos” ASC-nin xidmət ixrac etdiyi **5 əsas ölkə** (ABŞ dolları ilə)

| Ölkə | Məbləğ |
|---|---|
| Fransa | 11,8 milyon |
| Malayziya | 8,4 milyon |
| BƏƏ | 1,5 milyon |
| Almaniya | 941 min |
| Gürcüstan | 573 min |





2018-ci ilin **YANVAR-DEKABR AYLARINDA**
Azərbaycana gələn xarici vətəndaşlar
**BANK KARTLARI VASİTƏSİ İLƏ**
**1 278,4** milyon manatlıq əməliyyat aparmışlar

**ÖTƏN İLİN** müvafiq dövrü ilə müqayisədə xarici vətəndaşların **BANK KARTLARI VASİTƏSİ** ilə apardıqları əməliyyatların dəyəri **256** milyon manat və ya **25%** **ARTMIŞDIR**

Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən 2018-ci ildə Azərbaycana dünyanın 196 ölkəsindən 2 849,6 min və ya əvvəlki illə müqayisədə 5,7 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Gələnlərin 30,9 faizi Rusiya Federasiyası, 21,4 faizi Gürcüstan, 10,2 faizi Türkiyə, 8,5 faizi İran, 3,3 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2,6 faizi Səudiyyə Ərəbistanı, 2,4 faizi İraq, 2 faizi Ukrayna, 1,4 faizi İsrail, 17,2 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olmuşdur.

Əcnəbi və vətəndaşlığı olmayan şəxslərin 6,5 faizi yanvar, 5,8 faizi fevral, 9,7 faizi mart, 7,7 faizi aprel, 7,3 faizi may, 9,5 faizi iyun, 11,6 faizi iyul, 11,3 faizi avqust, 8,1 faizi sentyabr, 7,4 faizi oktyabr, 7,5 faizi noyabr, 7,6 faizi isə dekabr ayında ölkəyə gəlmişdir.

2017-ci illə müqayisədə 2018-ci ildə ölkəmizə gələn Səudiyyə Ərəbistanı vətəndaşlarının sayı 2,2 dəfə, Bəhreyn vətəndaşlarının sayı 2 dəfə, Küveyt vətəndaşlarının sayı 1,8 dəfə, Qətər vətəndaşlarının sayı 1,6 dəfə, İraq vətəndaşlarının sayı 7,9 faiz, Oman vətəndaşlarının sayı 7,4 faiz artmışdır.

2018-ci ildə Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 6,7 faiz artaraq 112,5 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 3,8 faiz artaraq 1 044,2 min nəfər olmuşdur.

2018-ci ildə ölkəmizə gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə xərcləmələrində də artım müşahidə edilmişdir. Belə ki, 2018-ci ilin yanvar-dekabr ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların dəyəri **1 278,4 milyon** manat təşkil etmişdir. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar-dekabr ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların dəyəri **256 milyon manat** və ya **25 faiz** artmışdır.

Ötən ilin dekabr ayında ölkəmizə gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların dəyəri **82,9 milyon** manat təşkil etmiş və 2017-ci ilin dekabr ayı ilə müqayisədə **6 faiz** artmışdır.

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN **BANK KARTLARI VASİTƏSİ İLƏ** APARDIQLARI ƏMƏLİYYATLAR **(milyon manatla)**

2019 İXRAC İCMALI YANVAR

| | 2016-cı il | 2017-ci il | 2018-ci il |
|---|---|---|---|
| Yanvar | 28,2 | 86,8 | 99,8 |
| Fevral | 36,7 | 72,5 | 91,1 |
| Mart | 40,6 | 91,1 | 105,8 |
| Aprel | 34,5 | 80,6 | 109,7 |
| May | 48,6 | 92,6 | 107,3 |
| İyun | 74,8 | 83,8 | 106,7 |
| İyul | 40,9 | 95,7 | 126,3 |
| Avqust | 52,5 | 100,8 | 141,0 |
| Sentyabr | 56,8 | 93,2 | 114,6 |
| Oktyabr | 52,5 | 74,4 | 117 |
| Noyabr | 62,3 | 72,1 | 76,2 |
| Dekabr | 73, 9 | 78,4 | 82,9 |
| **CƏMİ** | **602,3** | **1022** | **1 278,4** |

3

# AZEXPORT.AZ PORTALINA 2018-Cİ İLDƏ 514 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

Cari ilin **DEKABR AYINDA** Azexport.az portalına daxil olan **İXRAC SİFARİŞLƏRİNİN DƏYƏRİ** **35,1** milyon ABŞ dolları təşkil etmişdir

2018-ci ilin yanvar-dekabr aylarına Azexport.az portalına **514,1 milyon** ABŞ dolları dəyərində ixrac sifarişləri daxil olmuşdur. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ildə Azexport.az portalına daxil olan ixrac sifarişləri dəyər baxımından **8 faiz** artmışdır. 2018-ci ilin dekabr ayı ərzində isə Azexport.az portalına daxil olan sifarişlərin dəyəri **35,1 milyon** ABŞ dolları təşkil etmişdir.

2018-ci il ərzində portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində isə Rusiya (16,8%), ABŞ (8,6%), Türkiyə (5,4%), Hindistan (4,7%) və Ukrayna (4,1%) qərarlaşmışdır.

Daxil olan sifarişləri məhsullar üzrə təhlil etdikdə məlum olmuşdur ki, 2018-ci ilin dekabr ayında ən çox ixrac sifarişi pambıq və pambıq yağı, nar və nar şirəsi, şərab, soğan, meyvə tamlı süd, tütün, xiyar, qızılgül, toyuq əti, zeytun yağı, zəfəran, kartof, konservləşdirilmiş ət, boya, mebel dəsti, qənnadı məhsulları, günəbaxan yağı, çay, mühərrik yağı, mineral su və s. mallara daxil olmuşdur.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2018-ci ilin 31 dekabr tarixinə kimi (24 ay ərzində) Azexport.az portalına dünyanın 115 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri **989,1 milyon** ABŞ dolları təşkil etmişdir.

Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat isə təqdim olunan infoqrafikalarda verilmişdir.

**2017-ci il ərzində**

**CƏMİ - 475 milyon**




**2018-ci il üzrə**

YANVAR - 81,5 milyon

FEVRAL - 37,6 milyon

MART - 66,5 milyon

APREL - 36,9 milyon

MAY - 27,7 milyon

İYUN - 34,2 milyon

İYUL - 31,1 milyon

AVQUST - 51,5 milyon

SENTYABR - 43 milyon

OKTYABR - 23 milyon

NOYABR - 46 milyon

DEKABR - 35,1 milyon

**CƏMİ** - **514,1 milyon**



Son **24 ay** ərzindəki sifarişlərin cəmi - **989,1 milyon**

# 2018-Cİ İLİN DEKABR AYINDA AZEXPORT.AZ PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR

Pambıq və pambıq yağı



Nar və nar şirəsi



Şərab



Soğan



Meyvə tamlı süd



Tütün



Xiyar



Qızılgül



Toyuq əti/file



Zeytun yağı



Zəfəran



Kartof



Konservləşdirilmiş ət



Boya



Mebel dəsti



# 2018-Cİ İLİN **YANVAR-DEKABR AYLARINDA AZEXPORT.AZ** PORTALINA DAXİL OLAN **ƏSAS İXRAC SİFARİŞLƏRİNİN ÖLKƏLƏR** ÜZRƏ BÖLGÜSÜ



# 4

# SƏRBƏST SATIŞ SERTİFİKATI SAHİBKARLARA YENİ İXRAC İMKANLARI QAZANDIRMIŞDIR

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Azexport.az portalı tərəfindən "Sərbəst satış sertifikatı – yeni ixrac imkanları" mövzusunda tədbir keçirilmişdir. Tədbirin keçirilməsində başlıca məqsəd bu sertifikat sayəsində ixrac imkanlarının genişlənməsi barədə sahibkarlar məlumatlandırmaq olmuşdur.

Qeyd edək ki, Azexport.az portalı vasitəsi ilə təqdim olunan sərbəst satış sertifikatının verilməsi Azərbaycan şirkətlərinin yeni bazarlara çıxış imkanlarını artırmışdır. Belə ki, 2018-ci ildə sertifikat təqdim olunan dörd şirkət – "Gazelli Group", "Apiaz MMC" ("Ballı" brendi), "Aznar" QSC, "Brightman" MMC ("ZIRA" brendi) – artıq öz məhsullarını ABŞ, Dominikan, Filippin, İndoneziya, Çin, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Küveyt, Qətər kimi bir çox ölkələrin bazarlarına çıxara bilirlər.

Dünyanın əksər ölkələrinə idxal üçün icbari xarakter daşıyan sertifikat insan orqanizmi ilə təmasda olan qida, kosmetika, tekstil, tibbi cihazlar, gigiyenik vasitələr və s. məhsulların dövriyyəsində təhlükəsizliyin təmin edilməsi məqsədi daşıyır.

Tədbirdə iştirak edən "Gazelli Group"un departament direktoru Nigar Ramazanova, "Aznar" QSC-nin nümayəndəsi Fərid Xəlilzadə, "Brightman" MMC-nin nümayəndəsi Afət Əhmədova sərbəst satış sertifikatı vasitəsi ilə şirkətin əldə etdiyi üstünlüklərdən danışmışdırlar.

Qeyd edək ki, sertifikatın verilməsi üçün tələb olunan sənədlərə şirkətin qeydiyyat şəhadətnaməsi, sərbəst satış sertifikatı tələb olunan malların siyahısı, keyfiyyət sertifikatı, malların uyğunluq sertifikatı, (qanunla nəzərdə tutulduğu halda) malların istehsalı üçün lisenziya, beynəlxalq eyniləşdirmə nömrəsi - barkod (əgər varsa), ölkə ərazisində malların satışının təsdiqi (2-3 müştəriyə, faktura, çek və ya vergi hesab-faktura) daxildir.

## **SƏRBƏST SATIŞ SERTİFİKATI ALAN** ŞİRKƏTLƏRİN MƏHSUL İXRACI ETDİYİ **ÖLKƏLƏR**

2019 İXRAC İCMALI YANVAR

Sərbəst satış sertifikatı vasitəsilə Azərbaycandan insan orqanizmi ilə təmasda olan məhsulların **ABŞ, İndoneziya, Dominikan Respublikası, Filippin və Çin daxil olmaqla bir sıra ölkələrə ixracı həyata keçirilmişdir**.



5

# "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN 8 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ İXRAC REALLAŞMIŞDIR

2019-cu ilin yanvar ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi tərəfindən respublikamızda fəaliyyət göstərən fiziki və hüquqi şəxslərə ("Baku Steel Company" MMC, "Food Export Şəmkir" MMC, Teymur Əhmədov adına "AZNAR" QSC, "AzDelikates Alfa" MMC, "AzerGold" MMC, "ATENA" MMC və s. və s.) ixracat bağlı müvafiq sertifikat verilmişdir. Cari ilin yanvar ayında Azərbaycan sahibkarlarının "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsi ilə həyata keçirdikləri ixracın dəyəri **8 milyon** ABŞ dolları təşkil etmişdir. Fiziki və hüquqi şəxslərə əsasən polad borular, polad armatur yayma, qiymətli metal külçələr, avadanlıqlar, meyvə-tərəvəz, dondurulmuş ilbiz əti, narşərab, meyvə şirəsi, qənnadı məmulatları, süd məhsulları, biyan otu, dini təyinatlı ədəbiyyat, ayaqqabı altlıqları, şərab, soğan, və s. məhsulların ixracı üçün lazım olan müvafiq sənədlər təqdim edilmişdir. Sertifikat verilən məhsullar Rusiya, Gürcüstan, Türkiyə, Qazaxıstan, Ukrayna, Koreya, ABŞ, İran, Çin, İraq, Almaniya, Yeni Zellandiya, İsveçrə, Özbəkistan, Danimarka, Moldova və Böyük Britaniya daxil olmaqla dünyanın müxtəlif ölkələrinə ixrac olunmuşdur.

Qeyd edək ki, 2018-ci ildə də "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsi ilə **150 milyon** ABŞ dolları dəyərində ixrac həyata keçirilmişdir.



# 2019-CU İLİN YANVAR AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI (milyon ABŞ dolları ilə)

2019 İXRAC İCMALI YANVAR






# 2018-Cİ İLİN **DEKABR AYINDA "BİR PƏNCƏRƏ"** İXRACA DƏSTƏK MƏRKƏZİNİN TƏQDİM ETDİYİ **SERTİFİKATLARIN ÖLKƏLƏR ÜZRƏ BÖLGÜSÜ**




| Ölkə | Pay |
|---|---|
| RUSİYA | **28 %** |
| GÜRCÜSTAN | **20 %** |
| TÜRKİYƏ | **6 %** |
| QAZAXISTAN | **6 %** |
| UKRAYNA | **4 %** |
| KOREYA | **4 %** |
| ABŞ | **4 %** |
| İRAN | **2 %** |
| ÇIN | **2 %** |
| DİGƏR | **24 %** |

6

# AZƏRBAYCANDAN ALMANİYAYA 200 TON ORQANİK FINDIQ LƏPƏSİ İXRAC OLUNUR

Almaniyanın "Rapunzel" şirkəti ilə "Az-orqanik" MMC-nin əməkdaşlığı nəticəsində Azərbaycanda istehsal olunan ekoloji təmiz fındıq ləpəsinin ixracına imkan yaranmışdır. Artıq fermerlərimiz Avropa akkreditasiya orqanları tərəfindən "ekofermer" statusu qazanmaları üçün tələb olunan səviyyədə məhsul istehsal etməyə nail olmuşlar. Belə ki, AMEA-nın Ekoloji Təmiz Kənd Təsərrüfatı üzrə Regional Təcrübə və Resurs Mərkəzi, "Az-orqanik" MMC və istehsal şirkəti olan "Kaslar" MMC-nin birgə fəaliyyəti nəticəsində regionda ekoloji təmiz kənd təsərrüfatı üzrə təlim və seminarlarda iştirak edən 500-ə qədər fermerdən 200 nəfərinin təsərrüfatı Avropanın Bio-inspekta akkreditasiya orqanı tərəfindən sertifikatlaşdırılmışdır. Ötən il Şəki-Zaqatala regionunda yerləşən bu təsərrüfatlarda 500 ton orqanik fındıq istehsal olunmuşdur. Növbəti mərhələdə isə bu məhsul emal olunmuş və 200 ton orqanik fındıq ləpəsi əldə edilmişdir. Hazırda Azərbaycanda istehsal olunan orqanik fındıq ləpəsinin Almaniya Federativ Respublikasının Legau şəhərinə ixrac prosesi həyata keçirilir.



The fascination of Quality

Certificate

Number of certificate : BINT-4466

**AZ Organic LLC**
**U. Hacibeyov 4 / 46, Ganja**

**Azerbaijan**

Operator number: TR-150

Documentary evidence to the operator according to Article 29(1) of Part I of the bio.inspecta Organic Standard

**bio.inspecta Organic Standard (bi- OS) EU Equivalent Standard for third countries**

**Main activity:** Production
The certification details of products and activities are listed under www.EASY-CERT.com/CH/TR-150.

Date of last inspection: 29/06/2018

**Valid to:** **31.12.2019**

The products listed are subject to the provisions of the inspection system provided in the bio.inspecta Organic Standard for equivalence in third countries and are compliant with the requirements set out in Regulation (EC) No 834/2007 and the relevant implementing Regulation (EC) No. 1235/2008 as regards the arrangements for imports of organic products from third countries (Title III; Import of products providing equivalent guarantees).

The list of approved farmers forms an integral part of this certificate.

Frick, 08.11.2018

Peter Jossen
President of board of directors

Ueli Steiner
Director

Changes are subject to penalty under the criminal code.

EASY-CERT

**bio.inspecta AG**
Ackerstrasse
CH-5070 Frick
Phone +41 (0)62 865 63 00
**AZ-BIO-161**

7

# AZƏRBAYCAN MƏHSULLARI "BEYNƏLXALQ YAŞIL HƏFTƏ"DƏ NÜMAYİŞ OLUNMUŞDUR

Almaniyanın Berlin şəhərində ənənəvi "Beynəlxalq Yaşıl Həftə-2019" sərgisi keçirilmişdir. Sərgidə İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun təşkilatçılığı ilə 14 Azərbaycan şirkəti şərab və digər spirtli içkilər, müalicəvi bitki çayları, qənnadı məhsulları, qurudulmuş meyvələr və s. məhsullarını "Made in Azerbaijan" vahid ölkə stendi ilə təqdim etmişdirlər.

Xüsusi zövq və dizaynla hazırlanmış "Made in Azerbaijan" stendi sərgiyə gələnlər tərəfindən maraqla qarşılanmışdır.






## 2019-cu ilin ilk ixrac missiyası ÇİNƏ təşkil olunacaqdır

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə 2019-cu ilin ilk ixrac missiyası Çin Xalq Respublikasının Pekin şəhərinə təşkil olunacaqdır.

Cari ili fevral ayının 25-də başlayan və mart ayının 1-dək davam edəcək ixrac missiyasına qida, şərab və digər spirtli içkilərin istehsalı sahəsində fəaliyyət göstərən Azərbaycan şirkətləri daxil olacaqdır. Missiya çərçivəsində Azərbaycanlı sahibkarlar xarici iş adamları ilə ikitərəfli görüşlər keçirəcək, Azərbaycan məhsullarının Çin bazarına ixracının genişləndirilməsinə dair müzakirələr aparacaqlar.

Məlumat üçün bildirək ki, 2018-ci ildə 10 xarici ölkəyə 11 ixrac missiyası təşkil edilmişdir. Ümumilikdə isə indiyədək 24 ixrac missiyası təşkil olunmuşdur.




## DUBAYDA “Azərbaycan Ticarət Evi" açılmışdır

Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, Azərbaycanda istehsal edilən məhsulların ixracının təşviqi və genişləndirilməsi, "Made in Azerbaijan" brendinin xarici ölkələrdə tanıdılması, satışının təşkili və əlaqələndirilməsi məqsədilə xarici ölkələrdə ticarət evlərinin yaradılması prosesi davam etdirilir.

2019-cu ilin 15 yanvar tarixində Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində yerləşən məşhur “The Mall” Ticarət Mərkəzində “Azərbaycan Ticarət Evi” açılmışdır. İqtisadiyyat Nazirliyi tərəfindən yaradılmış “Azərbaycan Ticarət Evi” “Made in Azerbaijan” brendinin BƏƏ bazarında daha çox tanıdılmasına, Azərbaycan məhsullarının ixracının təşviqi və genişləndirilməsinə dəstək göstərəcək, yerli məhsullarımızın BƏƏ-də satışını təşkil edəcək, sahibkarlar arasında bu sahədə əlaqələndirməni həyata keçirəcəkdir.

Ticarət Evində Azərbaycan şirkətlərinin müxtəlif növ məhsullarının sərgisi təşkil olunmuşdur. Daimi fəaliyyət göstərəcək sərgidə 33 Azərbaycan şirkətinin istehsal etdiyi 600-dan artıq məhsul, o cümlədən meyvə və tərəvəzlər, quru meyvələr, fındıq, çay, mürəbbə, meyvə şirələri, mineral sular, limonadlar, konserv məhsulları, bitki yağları, süd və süd məhsulları, qənnadı məmulatları, kosmetik məhsullar və s. nümayiş olunur. Həmçinin burada Azərbaycanın zəngin mətbəxini təqdim edən restoran da fəaliyyət göstərir.

“Azərbaycan Ticarət Evi”nin fəaliyyətə başlaması ilə əlaqədar keçirilən tədbirdə Azərbaycan Respublikasının iqtisadiyyat naziri Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti, BƏƏ-nin rəsmi şəxsləri və iş adamları iştirak etmişdirlər.

Qeyd edək ki, BƏƏ-də açılan “Azərbaycan Ticarət Evi” ölkəmizin xaricdə yaradılmış sayca 7-ci ticarət evidir. Eyni zamanda, 2019-cu ilin 15 yanvar tarixində həm də BƏƏ-də Azərbaycanın Ticarət Nümayəndəliyinin ofisi də açılmışdır.

**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**


AZ 1073, Bakı ş., Yasamal r., Landau küç., 16
16, Landau str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Ландау, 16

Tel.: (+994 12) 521 28 48
E-mail: info@ereforms.org

www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az
/iqtisadiislahat
/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi








Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.



iqtisadiislahat.org
ereforms.org
ecoreform.az

/iqtisadiislahat

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org